## ŞƏMKİR RAYONUN EKOLOJİ ŞƏRAİTİNİN MÜASİR VƏZİYYƏTİ

**Orucova N.Z.**

*Bakı Dövlət Unversiteti*
*nigarorucova02@gmail.com*

Azərbaycanın Gəncə-Qazax iqtisadi rayonuna daxil olan Şəmkir rayonu xüsusi iqtisadi potensiala malik olan aqrar rayonlardan biridir. Rayonun şimal-şərq hissəsini (Kür çayının sol sahili) Ceyrançöl, Mərkəzi hissəsini Gəncə-Qazax düzənliyi, cənub hissəsini isə Kiçik Qafqazın şımal-şərq ətəkləri tutur. Rayonun əlverişli təbii şəraiti, mülayim iqlimi, müxtəlif dağ-meşə landşaft kompleksləri vardır. Tədqiq olunan ərazidə kollu və seyrək meşəli çəmənlər və dağ meşələri yayılmışdır. Rayonun ərazisindən Kür çayı və onun qolları (Zəyəm, Şəmkir, Cəyir və s) keçir. Kür çayı sahilində tuqay meşələri yayılmış və onların altında allüvial (tuqay) çəmən-meşə torpaqları inkişaf etmişdir.

Ərazinin iqlimi qışı quraq keçən mülayim-isti, yarımsəhra çöl iqlim tipinə mənsubdur. Bu iqlim tipi yayın isti və quru, qışın isə yumşaq və quru keçməsilə səciyyələnir.

Havanın orta illik temperaturu 14$^0$ C-yə çatır. Qışı mülayim keçir, ən soyuq ayı yanvar olub, orta temperaturu 1-2$^0$ C, ən isti ayı isə iyul olub, orta temperatur 26-27$^0$ C təşkil edir. Torpaq səthinin orta illik temperaturu 16$^0$ C olub, ən az yanvar ayında 1$^0$C-yə , ən çox isə iyul ayında 33$^0$ C-yə çatır. Havanın orta illik nisbi rütubəti 65% olub, il ərzində 52-75% arasında dəyişir. İllik yağıntıların ümumi miqdarı 292 mm-dir. Ərazidə ən çox yağıntı yaz fəslində düşür. İyul və avqust aylarında yağıntının miqdarı kəskin sürətdə azalır və ərazidə quraqlıq müşahidə edilir ki, bunun da kənd təsərrüfatı bitkilərinin boy artmasına və inkişafına heç bir müsbət təsiri olmur, nəticədə məhsuldarlıq aşağı düşür. Eyni zamanda ərazidə quraqlıq dövründə nəmliyin çatışmaması nəticəsində mədəni bitkilər rütubətlə normal təmin olunmur və tələf olur.

Şəmkir rayonunun şimal-şərq və mərkəzi hissəsi əsasən düzənlik, cənub hissəsi isə dağlıqdır. Şərti olaraq ərazinin relyefi düzənlik, dağətəyi düzənlik və orta dağlıq qurşaqlara ayrılır. Qərbdən şərqə doğru Kür çayı boyu uzanan maili düzənlikdə torpaq ehtiyatlarından əsasən qış otlaqları kimi istifadə olunur. Dağətəyi düzənlikdə başlıca olaraq əkinçilikdə istifadə edilən torpaq ehtiyatları yayılmışdır. Parçalanmış səth quruluşu orta dağlıq qurşaqda qismən əkinçiliyin və əsasən heyvandarlığın ehtiyaclarını ödəyən torpaqlar və eləcə də meşə fondu torpaqları, düzənlik ərazilərdə isə yay otlaqları kimi istifadə olunan torpaq ehtiyatları yayılmışdır. Ərazinin quruluşu xarici görünüşünə görə mürəkkəb olub mikro və makrorelyef tiplərinin kombinasiyası ilə xarakterizə olunur. Əsas hissə düzənlikdə yerləşməklə, çox da yüksək olmayan təpə və təpəciklər də mövcuddur.

Şəmkir rayonunun təbii bitki örtüyü kserofit (quraqlığa davamlı) və başqa təbii bitkilər ilə xarakterizə olunur. Bunların nümayəndələrindən yovşan, sirkən, biyan, dəvətikanı, qaratikan və başqa bitkiləri göstərmək olar.

Şəmkir rayonunun ərazisində daha öncədən aparılan tədqiqatlara istinadən və bizim müşahidələrimizə əsasən aşağıdakı torpaq tip və yarımtiplərinin yayılması müəyyənləşdirilmişdir: yuyulmuş qəhvəyi dağ-meşə, tipik qəhvəyi dağ-meşə, karbonatlı qəhvəyi dağ-meşə, tünd boz-qəhvəyi (şabalıdı), adi boz-qəhvəyi (şabalıdı), qismən qalıq şorlaşmış açıq boz-qəhvəyi, (şabalıdı), çəmən boz-qəhvəyi (çəmən-şabalıdı), allüvial çəmən.

Beləliklə, Şəmkir rayonun ərazisində aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, rayonun ekoloji şəraitinin müasir vəziyyəti yuxarıda səciyyələndirilmiş kimidir.